Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

## I CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2016

**ƏNVƏR BEHBUDOV**
*(20.3.1912, Şuşa – 20.2.1995, Moskva).*
*Rejissor.*

Ənvər Məcid oğlu Behbudov 1937 – 1942-ci illərdə Ümumittifaq Dövlət Teatr Sənəti İnstitutunun rejissorluq fakültəsində təhsil alıb. Rusiyanın Ulyanovsk (1944 – 1946), Xabarovsk (1946 – 1948), Novosibirsk (1948 – 1954), Rostov (1959 – 1964) teatrlarında, Tatarıstanın Kazan Böyük Dram Teatrında (1954 – 1959) quruluşçu rejissor, baş rejissor və bədii rəhbər işləyib. 1966 – 1969-cu illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrında, 1969 – 1978-ci illərdə Azərbaycan Dövlət Rus Dram Teatrında baş rejissor işləyib. SSRİ xalq artisti, müğənni Rəşid Behbudovun böyük qardaşıdır. SSRİ-nin Qırmızı Əmək Bayrağı və «Şərəf nişanı» ordenləri və müxtəlif medalları ilə təltif edilib 1965-ci ildə Rusiya Sovet Federatv Sosialist Respublikasının (RSFSR) Xalq artisti fəxri adına layiq görülüb.



Opera və Balet Teatrında Üzeyir bəy Hacıbəylinin «Koroğlu» operasını, Rus Dram Teatrında Eji Stavinskinin «Gur saatda», Mixail Şatrovun «Altı iyul», İqnat Dvoretskinin «Kənar adam», Rüstəm İbrahimbəyovun «Öz yolun ilə», Nəbi

Xəzrinin «Sən yanmasan...», Aleksandr Vampilovun «Ötən yay Çelumskidə», «Şəhər kənarında görüş», Aleksandr Gelmanın «Bir iclasın protokolu», Vasili Şukşinin «İşgüzar adamlar», Leonid Juxovitskinin «Dayan, bax», İmran Qasımovun «Ömür elə qısadır ki...», Yevgeni Çebalinin «Reallaşan arzular» dramlarını tamaşaya hazırlayıb. Milli Dram Teatrında Maksim Qorkinin «Zıkovlar» pyesinə quruluş verib.